# Azərbaycan Respublikası

## Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının

## SƏRƏNCAMI

**№ 146** **28 avqust 2024-cü il**

**Binəqədi rayon təsərrüfatının 2024-2025-ci illərin payız-qış mövsümünə hazırlığı ilə əlaqədar tədbirlər haqqında**

Binəqədi rayon təsərrüfatının 2024-2025-ci illərin payız-qış mövsümünə hazırlığı ilə əlaqədar tədbirlərin keyfiyyətlə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 12 iyun 2012-ci il tarixli 648 saylı Fərmanı ilə təsdiq edilmiş "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.2, 4.9.5 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsi tərəfindən tərtib edilmiş "Binəqədi rayon təsərrüfatının 2024-2025-ci illərin payız-qış mövsümünə hazırlığı ilə əlaqədar" Tədbirlər planı təsdiq edilsin; (əlavə 1).
2. Binəqədi rayon təsərrüfatının 2024-2025-ci illərin payız-qış mövsümünə hazırlıq işlərinə rəhbərlik məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Rayon Qərargahı yaradılsın və tərkibi təsdiq edilsin;(əlavə 2)
3. Qərargaha tapşırılsın ki, rayon təsərrüfatının payız-qış mövsümünə hazırlığı ilə bağlı işlərin icrasını və nizam-intizam qaydalarına əməl edilməsi vəziyyətini nəzarətə götürərək, vaxtaşırı görülmüş işlərin nəticələrinin müzakirəsini təşkil etsin və bu barədə Rayon İcra Hakimiyyəti başçısının məlumatlandırılmasını təmin etsin;
4. Qərargaha tapşırılsın ki, rayonun mikrorayon və qəsəbələrində qışa hazırlıq işlərinin zəruri səviyyədə təşkil olunması üçün Binəqədi Rayon İcra Hakimiyyətinin məsul işçiləri arasında təhkimçilik işlərini təşkil etsin;
5. Binəqədi rayon MKTB, QİƏD və SİƏD rəhbərlərinə tapşırılsın ki, tabeliyindən asılı olmayaraq yaşayış binalarının, məktəb, uşaq bağçaları, səhiyyə və sosial obyektlərin saxlanılmasına nəzarəti artıraraq binadaxili kommunikasiya xətlərinin işlək vəziyyətə gətirilməsi və istilik itkilərinin qarşısının alınması məqsədilə qısa müddət ərzində monitorinq aparılsın və çatışmazlıqlarla əlaqədar zəruri tədbirlər görülməsi üçün Rayon İcra Hakimiyyətinə və aidiyyəti təşkilatlara məlumat versinlər;
6. Binəqədi rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi Elmin Zamanova tapşırılsın ki, özünün fəaliyyət strukturuna uyğun olaraq, yaşayış binalarının qış mövsümündə istilik enerjisi ilə stabil təmin edilməsi üçün

Scanned with CamScanner

xüsusi tədbirlər planı hazırlasın, onun icrasını təmin etməklə hər ay Rayon İcra Hakimiyyətinə məlumat versin;

7. Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimova, Binəqədi rayon Sukanal İdarəsinə, müvafiq ərazi üzrə bələdiyyələrə tövsiyə olunsun və Rayon İcra Hakimiyyəti başçısının qəsəbə inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinə tapşırılsın ki, yağışlı hava şəraitində kanalizasiya şəbəkəsi olmayan ərazilərə zəruri texnikanın cəlb edilməsini və həmin ərazilərdə nəzarətin gücləndirilməsini təmin etsinlər;
8. Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi rayonu üzrə texniki istismar xidmətinə tapşırılsın ki, rayon ərazisində payız-qış mövsümü ərzində qaz təchizatında mövcud olan problemlərin təxirəsalınmadan aradan qaldırılmasını təmin etsin və əhalinin fasiləsiz və keyfiyyətli məişət qazı ilə təchiz edilməsi məqsədilə xidməti sahələrə nəzarəti gücləndirsin;
9. Binəqədi rayon Sukanal İdarəsinə tapşırılsın ki, payız-qış mövsümündə rayonun içməli su təchizatı və kanalizasiya sahəsində mövcud olan problemlərlə əlaqədar tədbirlər planında nəzərdə tutulan işlərin vaxtında yerinə yetirilməsini, yaşayış məntəqələrinin qrafikə uyğun olaraq daimi içməli su ilə təchiz edilməsi məqsədilə qabaqlayıcı proflaktiki tədbirlərin həyata keçirilməsini təmin etsin;
10. 3, 15 və 20 saylı İstilik Sistemləri İstismar Sahələrinə - Rövşən Tağıyevə, Sədrəddin İmanova tapşırılsın ki, 15 noyabr 2024-cü il tarixdən rayonun istilik təchizatının qış rejiminə keçirilməsini, istilik qazanxanalarını və istilik məntəqələrini işlək vəziyyətə gətirərək, onların qrafik üzrə işə salınmasını, yaşayış binalarına, məktəb, uşaq bağçaları və digər sosial obyektlərə gedən magistral xətlərin texniki vəziyyətini bir daha araşdıraraq, binadaxili iş rejimini təmin etsinlər;
11. Binəqədi rayon Enerji Təchizatı və Satışı İdarəsinə, Biləcəri Enerji Təchizatı və Satışı İdarəsinə və "Bakı Şəhər İşığı" Binəqədi Texniki İstismar rayonuna tapşırılsın ki, payız-qış müvsümü ərzində əhalinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi, həmçinin küçə və prospektlərin gecə işıqlandırılması ilə təchiz olunması məqsədilə nəzarəti gücləndirsinlər;
12. Binəqədi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinə - Elmin Zamanova tapşırılsın ki, Birliyin balansında olan yaşayış binalarında cari təmir işlərinin aparılmasını, sakinlərin ümumi istifadəsində olan kommunikasiya vasitələrinin və sahələrin saxlanılması, yaşayış binalarında tüstü və havalandırma kanallarının yoxlanılması və təmizlənməsi məqsədilə zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin;
13. Binəqədi rayon Yaşıllaşdırma Sahəsinin rəisi Fariz Manafova tapşırılsın ki, qış mövsümündə yaşıllıqların qorunub saxlanılması məqsədilə zəruri tədbirlərin görülməsini təmin etsin;
14. Qarlı hava şəraitində nəqliyyatın normal işinin və müvafiq ərazilərin qardan vaxtında təmizlənməsinin təşkil edilməsi Binəqədi Rayon İcra Hakimiyyəti başçısının bu Sərəncamı ilə yaradılmış qərargaha həvalə edilsin;

Scanned with CamScanner

15.Qərargaha tapşırılsın ki, qış mövsümündə müvafiq ərazilərin qardan təmizlənməsi işi üzrə qəbul edilmiş tədbirlərin həyata keçirilməsini təmin etsin və hava şəraitindən asılı olaraq, rayon ərazisində fəaliyyət göstərən idarə və təşkilatlara məxsus maşın və mexanizmlərdən istifadə edilməsini təmin etsin;

16.Rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrə tövsiyə olunsun, Rayon İcra Hakimiyyəti başçısının qəsəbə inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinə, Binəqədi rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinə, həmçinin xidmət təşkilatlarına, birlik, idarə rəhbərlərinə tapşırılsın ki, səkilərin, küçə və məhəllədaxili yolların qardan vaxtında təmizlənməsi məqsədilə nəzərdə tutulmuş sahələrə ayrılmış texnika, nəqliyyat və mexanizmlərin işlək vəziyyətə gətirilməsi və qarın təmizlənməsi üçün xüsusi ləvazimatlarla təmin edilməsi işlərini həyata keçirsinlər;

17.Rayon Dövlət Yol Polisi Şöbəsinə tapşırılsın ki, qış mövsümündə küçə və yollarda nəqliyyatın hərəkətinin tənzimlənməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin;

18.Qərargahın tərkibində fəaliyyət göstərən idarə və müəssisə rəhbərləri payız-qış mövsümünə hazırlıqla əlaqədar təsdiq edilmiş plan üzrə tədbirlərin keyfiyyətli, vaxtında yerinə yetirilməsini təmin etsinlər və icrası barədə məlumat versinlər.

19.Qərargahın sədri Hacıbaba Babayevə tapşırılsın ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar təsdiq edilmiş plan üzrə tədbirlərin keyfiyyətli, vaxtında yerinə yetirilməsini araşdırıb və aidiyyəti üzrə icra intizamını təmin etməyən idarə və müəssisələrin cavabdeh şəxsləri barəsində tədbirlər görülməsi üçün Rayon İcra Hakimiyyəti başçısına təqdimat versin.

20.Sərəncamın icra olunması üçün aidiyyəti təşkilatlara göndərilməsi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə həvalə edilsin.

21.Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner